# Ağdaş dünən belə deyildi

**Ölkəmizin qədim yurd yerlərindən biri olan Ərəş mahalında - Ağdaşda son illərdə aparılan geniş quruculuq və abadlıq tədbirləri rayonun görkəmini tamamilə dəyişmişdir. Buraya qədəm qoyan hər bir kəs yaradılan saysız-hesabsız gözəlliklərdən zövq alır, heyranlıqlarını bildirirlər.**

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi strategiya 2003-cü ildən respublikaya inamla rəhbərlik edən möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu strategiyanın yeni dövrün tələblərinə uyğun əhəmiyyətli dərəcədə zənginləşdirilməsi milli iqtisadiyyatın regional və qlobal sınaqlara dayanıqlığını artırmış, sosial-iqtisadi islahatlarla müəyyən edilmiş məqsədlərə nail olunmasını, o cümlədən həmin siyasətin əsasını təşkil edən əhalinin sosial vəziyyətinin yaxşılaşmasını təmin etmişdir. Əldə edilmiş mühüm siyasi və iqtisadi uğurlar cəmiyyət həyatının bütün sahələrində güclü inkişafı şərtləndirir. Azərbaycanda reallaşdırılan hər bir dövlət proqramının mərkəzində insan, onun rifahı, gələcək nəslin inkişafına qayğı durmuşdur.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında ölkəmizdə sosial və iqtisadi sahədə qarşıya qoyulmuş proqram və məqsədlərə uğurla nail olunduğu bir daha qeyd edilmişdir.

Əvvəlki illərdə olduğu kimi, cari ilin birinci yarımilində də ölkəmizin sosial-iqtisadi inkişafı davam etmiş, iqtisadi siyasətin prioritet istiqamətləri olan makroiqtisadi sabitliyin möhkəmləndirilməsi, qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, sənaye potensialının gücləndirilməsi, regionların tarazlı inkişafı, əlverişli biznes və investisiya mühitinin formalaşdırılması və digər sahələrdə əhəmiyyətli işlər görülmüş, nəticədə əhalinin rifahının yüksəlməsi davam etmişdir. Ölkəmizdə cari ilin 6 ayında ümumi daxili məhsulun artımı 5,7 faiz, qeyri-neft sektoru 9,2 faiz, sənaye istehsalı təxminən 4 faiz, qeyri-neft sənayesi 14 faizdən çox artmışdır. Bu da son illərdə sənayeləşmə, yeni sənaye zonalarının yaradılması ilə bağlı görülmüş işlərin, tədbirlərin nəticəsidir. Bu dövrdə inflyasiya 3,5 faiz olmuş, əhalinin pul gəlirləri ənənəvi olaraq inflyasiyanı üstələmiş və 6,2 faiz artmışdır. Kənd təsərrüfatında məhsul istehsalının artım tempi son illər ərzində ən yüksək həddə 7,3 faizə çatmışdır. Bu da görülən işlərin nəticəsində mümkün olmuşdur. Ölkəyə 6 ayda 12,7 milyard manat sərmayə qoyulmuşdur. Müşavirədə möhtərəm Prezidentimiz cənab İlham Əliyev qeyd etmişdir ki, Azərbaycanda inkişaf dinamik xarakter daşıyır və deyə bilərəm ki, altı ay ərzində əldə etdiyimiz uğurlar tarixi uğurlardır. Ona görə ki, bu gün biz dünyanın müxtəlif yerlərində çox xoşagəlməz prosesləri müşahidə edirik. Yaxın Şərqdə vəziyyət həddindən artıq çox gərginləşib. Qanlı toqquşmalar dayanmır, qan tökülür və yeni müharibə ocaqları yaranır. Avropa dərin iqtisadi böhran içindədir və bu böhrandan hələ ki, çıxış yollarını tapa bilməyib. Eyni zamanda, biz mənəvi böhranın təzahürlərini də görürük və bu, bizi çox narahat edir. Ötən 6 ayda ölkəmizdə 60 minə yaxın yeni iş yeri açılmışdır ki, onlardan 48 mini daimi iş yeridir. Azərbaycanda, ümumiyyətlə, son 12 il ərzində 1 milyon 400 min iş yeri açılmışdır ki, onlardan 1 milyonu daimi iş yeridir. Bunun hesabına Azərbaycanda işsizlik keçən ilin yekunlarına görə 5 faiz səviyyəsində olmuşdur. Bütün mötəbər beynəlxalq maliyyə qurumları Azərbaycanda işsizliklə, yoxsulluqla bağlı mübarizəni çox yüksək qiymətləndirmişdir. Sosial sahədə də bütün proqramlar icra edilir. Baxmayaraq ki, dövlət büdcəsi qəbul ediləndə neftin qiyməti 90 dollardan hesablanmışdır, əslində indi 60 dollar səviyyəsindədir. Bir neçə ay bundan əvvəl daha da aşağı səviyyədə idi, əlli dollardan aşağı düşmüşdü. Ancaq bütün sosial proqramlar vaxtında icra edilir və bu da siyasətimizin əlamətidir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və heç bir sosial proqram heç vaxt ixtisar olunmayacaq, əksinə, biz yeni təşəbbüslər haqqında fikirləşirik. Bu, bir daha onu göstərir ki, hətta böhranlı illərdə Azərbaycan sürətlə inkişaf edə bilər. Çünki bizim düşünülmüş siyasətimiz var. Bizim proqramlarımız reallıq üzərində qurulubdur.



Müşavirədə qeyd edilmişdir ki, kənd təsərrüfatının inkişafı üçün də bu il çox önəmli addımlar atılmış, kənd təsərrüfatının inkişafına xidmət göstərən bir neçə fərman imzalanmışdır. Hesabat dövründə taxılçılıqda məhsuldarlıq böyük dərəcədə — təxminən 20 faiz artmışdır. Əvvəllər hektardan 22 sentner götürülürdüsə, indi məhsuldarlıq hektardan 30 sentnerə çatmışdır. Dövlətin dəstəyi ilə iri fermer təsərrüfatları yaradılır, meliorasiya tədbirləri, bütün aqrotexniki tədbirlər görülür, strukturlaşma prosesi gedir və şəffaflıq təmin edilir.

Müşavirədə beynəlxalq siyasət sahəsindən bəhs edən möhtərəm Prezidentimiz qeyd etmişdir ki, bizim siyasətimiz Azərbaycan maraqları üzərində qurulubdur. Heç bir kənar qüvvə bizim siyasətimizə təsir edə bilməz.

Ölkəmizin 2015-ci ilin birinci yarımilliyinin ictimai-sosial və iqtisadi həyatının ən əlamətdar hadisəsi sözsüz ki, Bakıda ilk Avropa Oyunlarının keçirilməsi olub.

Müstəqillik tariximizin qürurverici səhifələrindən birinə, ölkə üzrə ümummilli həmrəyliyin göstəricisinə çevrilən bu möhtəşəm idman bayramı müstəqil Azərbaycanın yetirmələri olan gənc idmançılarımızın doğma azarkeşlərə bəxş etdikləri hədsiz qələbə sevinclərini, onların əzmli mübarizəsini və gücünü nümayiş etdirməklə yanaşı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında dövlətimizin artan qüdrətini, böyük məsuliyyət və təşkilatçılıq tələb edən ən mötəbər tədbirləri belə yüksək səviyyədə keçirməyə qadir olduğunu bir daha sübut etdi.

Onilliklər ərzində ideya kimi qalan Avropa Oyunlarının tarixdə ilk dəfə təşkil olunmasında, köhnə qitənin 50 ölkəsindən ən güclü atletlərinin bir araya gətirilməsində və Oyunların bütün beynəlxalq standartlara cavab verən yüksək təşkilatçılıq səviyyəsində keçirilməsində Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Təşkilat Komitəsinin peşəkar komanda işi, fədakar fəaliyyəti və yüksək vətənpərvərliyi xüsusi qeyd olunmalıdır.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi islahatlar qarşıdakı dövrdə nailiyyətlərimizin daha da artmasını, ölkəmizin dünyada mövqeyinin möhkəmlənməsini və xalqımızın sosial-iqtisadi vəziyyətinin davamlı olaraq yaxşılaşmasını təmin edəcək, müsbət nəticələr və davamlı inkişaf sayəsində müəyyən etdiyimiz hədəflərə nail olunacaqdır.

Ölkəmizin bütün bölgələrində olduğu kimi, Ağdaş rayonunda da sosial-iqtisadi inkişafa nail olunması sahəsində mühüm tədbirlər görülmüşdür. Bu dövrdə abadlıq-quruculuq sahəsində tədbirlərin həyata keçirilməsi davam etdirilmiş və əhalinin yeni iş yerləri və kommunal xidmətlərlə normal təmin olunması sahəsində məqsədyönlü işlər görülmüşdür.

Ağdaş Rayon İcra Hakimiyyətindən görülmüş işlərlə əlaqədar bizə bildirdilər ki, cari ilin ötən dövrü ərzində Heydər Parkında aparılan yenidənqurma işləri davam etmiş, Ağdaş şəhəri ərazisində və magistral yolların kənarlarında 55 min müxtəlif ağaclar əkilmiş, rayonun Aralbir kəndində 220 şagird yerlik məktəb binası tikilərək istifadəyə verilmişdir. Tofiqi kəndində 220 şagird yerlik, Qarağan-Şıxlar və Qülbəndə kəndlərinin hər birində 180 şagird yerlik və Ərəbşəki kəndində isə 80 şagird yerlik məktəb binalarının və Ağdaş şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması sahəsində işlər davam etmişdir.



Rayonda əhalinin elektrik enerjisi və təbii qaz yanacağı ilə təminatını yaxşılaşdırmaq məqsədilə hesabat dövrü ərzində də təmir işləri davam etdirilmiş, 24.4 km uzunluğunda elektrik xətləri, 41 ədəd 10/04 kv-luq transformator yarımstansiyası əsaslı təmir olunmuş və rayon ərazisində 10 ədəd yeni transformator məntəqəsi yaradılmış, hazırda quraşdırma işləri davam edir.

Rayonun "Dağ dibi" adlanan ərazisində yerləşən Türyançay fəhlə qəsəbəsinin, Yuxarı və Aşağı Ağcayazı, Şəkili, Qoşaqovaq, Cüvə, Korarx, Pirkəkə və Ərəbocağı kəndlərinin təbii qaz yanacağı ilə təmin olunması üçün yeni qaz xətlərinin çəkilişi davam edir.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin sərəncamına əsasən 2015-ci ilin "Kənd təsərrüfatı ili" elan edilməsi ilə əlaqədar rayonda ilin əvvəlindən aqrar sektorun inkişafı sahəsində də müəyyən işlər görülmüşdür.

Rayonda taxılçılıq, tərəvəzçilik və heyvandarlıq məhsulları istehsalının inkişaf etdirilməsi diqqət mərkəzində saxlanılmışdır. Əkilmiş 10 min 340 hektar taxıl sahəsinə hesabat dövründə aqrotexniki qulluq göstərilmiş, taxıl biçini üçün lazımi tədbirlər görülmüşdür. Bu dövrdə yazlıq əkinlər başa çatmış və 8 min 258 hektar, o cümlədən 2 min 361 hektar tərəvəz, 880 hektar dən qarğıdalı, 665 hektar bostan, 680 hektar çəltik, 144 hektar lobya, 35 hektar yazlıq arpa, 3 hektar vələmir, 241 hektar texniki bitkilər, 2 min 579 hektar yonca əkilmişdir.

Rayonda əkilmiş 10 min 340 hektar taxıl sahəsinin 10 min 133 hektarında biçin aparılmış, həmin sahədən 30 min 804 ton taxıl istehsal olunmuşdur. Hesabat dövründə 2015-ci ilin məhsulu üçün əkilmiş 2 min 361 hektar tərəvəz sahələrinə aqrotexniki qulluq olunmuş və bu sahədən 28 min 10 ton tərəvəz, 133 hektar sahədən 1862 ton bostan məhsulları yığılmışdır.

Rayonda mal-qara arasında süni mayalandırma işinin təşkili və onun genişləndirilməsi sahəsində tədbirlər görülmüşdür. Hesabat dövrü ərzində 1561 baş heyvan süni yolla mayalanmış və süni yolla mayalanmış heyvanlardan 751 baş bala alınmışdır.

Bu dövrdə 2014-cü ilin müvafiq dövrünə nisbətən iribuynuzlu mal-qaranın sayı artaraq 79 min 566 baş, xırdabuynuzlu mal-qaranın sayı artaraq 96 min 214 baş olmuşdur.

Rayon ərazisində biyan istehsalı müəssisəsinin yaradılmasına başlanılmış və 210 hektar sahədə biyan əkilmişdir.

Ötən müddət ərzində həyata keçirilmiş tədbirlər nəticəsində rayonda keçən ilin müvafiq dövrünə nisbətən ümumi məhsul istehsalı 7.8 faiz və ya 10 milyon 458 min manat artaraq 144 milyon manat, kənd təsərrüfatı məhsulu istehsalı 20.8 faiz və ya 13 milyon 112 min manat artaraq 76 milyon manat, sənaye məhsulu istehsalı 3.5 faiz və ya 144 min manat artaraq 4 milyon 255 min manat olmuşdur. Bu dövrdə rayonda 32 milyon 863 min manatlıq tikinti-quraşdırma işləri görülmüş, bütün maliyyə mənbələri hesabına əsas kapitala 33 milyon 696 min manat həcmində investisiya qoyulmuş, əhaliyə göstərilən ticarət xidmətinin həcmi 13.1 faiz, rabitə xidmətinin həcmi 4.1 faiz, nəqliyyat xidmətinin həcmi isə 3.5 faiz artmışdır. 2015-ci ilin birinci yarısında rayonda 167-si daimi olmaqla 1027 yeni iş yeri yaradılmışdır.



2015-ci il üçün rayon büdcəsi 21 milyon 796 min manat, 2014-cü il rayon büdcəsindən 125 min manat çox təsdiq edilmişdir. 2015-ci ilin birinci yarısında rayon büdcəsinin mədaxil hissəsi 9 milyon 744 min manat icra olunmuş, bu dövrdə respublika büdcəsindən 7 milyon 600 min manat həcmində dotasiya alınmışdır.

İlin əvvəlindən rayonda 1800 ailənin 8 min 521 üzvünə 1 milyon 634 min manat ünvanlı dövlət sosial yardımı verilmiş, bu dövrdə 4777 nəfər sosial müavinət alan şəxslərə 1 milyon 783 min manat vəsait ödənilmişdir. Hazırda Ağdaş Əhalinin Sosial Müdafiəsi Mərkəzinin sosial məişət xidməti sektoru tərəfindən rayonda 188 nəfər tək-tənha ahıl və əlillərə evdə sosial-məişət xidməti göstərilir. Hesabat dövründə rayonda 19 şəhid və Qarabağ əlilləri üçün fərdi mənzil tikintisinə başlanılmış, hazırda tikinti işləri davam edir.

"Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına əsasən əmək pensiyasının sığorta hissəsi olan 12670 nəfərin pensiyasının sığorta hissəsində indeksləşmə aparılmış, hər ay üçün əlavə hesablanmış 8 min 503 manat vəsaitin ödənilməsi təmin edilmişdir. Rayon üzrə pensiya və müavinətlər üçün bu dövrdə 15 milyon 711 min manat vəsait ödənilmişdir.

Hazırda rayon ərazisində bir sıra həlli vacib problemlər vardır ki, bunların da vaxtında və yüksək səviyyədə həll olunması diqqət mərkəzindədir.

Ağdaş şəhərinin küçələrinin asfaltlaşdırılmasının davam etdirilməsi, kəndlərarası yolların asfaltlaşdırılması, Ağdaş şəhərinin qaz istismar şəbəkəsinin yenidən qurulması, təbii qazla təmin olunmayan kənd yaşayış məntəqələrinin qazlaşdırılması, istismar müddəti başa çatmış elektrik dirəklərinin dəyişdirilməsi, elektrik xətlərinin SİP-kabellərlə əvəz olunması, əhalinin içməli suya tələbatının ödənilməsi məqsədilə qəsəbə və kəndlərdə artezian su quyularının qazılması və içməli su mənbəyi kimi suvarma arxlarından istifadə olunan kəndlərdə sutəmizləyici qurğuların quraşdırılması, əhalinin məşğulluğunun artırılması, yeni iş yerlərinin yaradılması və başqa problemlərin aradan qaldırılması məqsədilə ardıcıl və sistemli iş aparılır.

Fərəhli haldır ki, ilin qalan dövrünü də uğurla başa vurmaq üçün rayonda bütün qüvvələr səfərbər olmuşdur.

**İlham PƏNAHOV,**
**"Respublika".**